# Milli kimlik: "Dövlət mənəm"

**ORXAN VƏLİYEV,**
*sosial elmlər üzrə fəlsəfə doktoru*



I

Liberal demokratik prinsiplərə zidd kimi görünsə də, əksər modern millətlərdə milli kimlik müxtəlifliklərin toplamı və idarə olunmasıdır. Bu anlayışa görə, millət üzvlərinin müxtəlifliyindən ibarət özünəməxsus sosial, siyasi reallıqdır. Modern cəmiyyətdə bərabər yaşamağın, yaratmağın, qurmağın, qorumağın və qorunmağın cavabı milli kimlikdir. Milli kimliyin uğurlu tətbiqi eyni ölkədə eyni dildə danışa bilən vətəndaşların kədər və sevinc anlarında eyni fikirdə olmasından asılıdır.

Bu anlamda millət, milli kimlik modern insanın bərabər yaşamaq ehtiyacına əsasən, dövlət əliylə tapılan cavabdır. Belə olan halda mövcudolma baxımından uzlaşma əldə edilmiş, normativ və şərtləri qəbul etmiş fərdlər toplusunu millət olaraq qəbul etmək olar. Modern dünyada torpağın siyasi və hüquqi aqibəti milli suverenlik anlayışı çərçivəsində müəyyən edildi. Romada, orta əsr Avropa universitetlərində fərqli bir mahiyyət kəsb edən millət (*natio*) anlayışı modern insanı toplu olaraq bir arada tutan aparıcı anlayış olaraq ortaya çıxmışdır. Modernizmi doğuran intibah, coğrafi kəşflər, elmi inqilablar, siyasi inqilablar son təhlildə insanın birlik formasında dəyişikliyinə səbəb oldu. Daha doğrusu, "dövlət mənəm" deyən modern idarəetmə formaları (hökumətlər) inqilabların yaratdığı xaosu kapitalist iqtisadi münasibətlərin də dəstəyi ilə millətləri formalaşdıraraq həll etməyə çalışdı. Bu çevrilmənin (*transformation*) bir digər tərəfi iqtisadi istehsal prosesindəki inqilabi dəyişiklik idi. İnsanlıq əl əməyinə əsaslanan sahələrdə mexaniki istehsal mərhələsinə keçid etdi. Bütün bu inqilabi dəyişikliklər insanın azadlıq və bərabərlik anlayışı və ehtiyacından tutmuş kollektiv kimlik ehtiyacına qədər dəyişikliyə səbəb oldu.

> *Millət irqi bağlılıqdan daha çox şüurlu birliyi ifadə edir. Çünki millət və milli kimlik anlayışı bəzən fərdlərin seçimi, bəzən də ümumi iradə tərəfindən fərdin müəyyən edilməsi metoduyla olsa belə, cəmiyyət üzvlərinin toplam varlığından ibarət sosioloji bir gerçəklikdir...*

İnsanın varolma şəkli renessans sənəti ilə bərabər ön plana çıxarıldı və modern dövrdə azad və bərabər insan modeli modernizmin əsas üstünlükləri olaraq ifadə edildi. Belə ki, İmmanuel Kant aydınlanmanı ağlı-

nı istifadə edə bilən (*sapare aude*) insan subyektinə bağlamışdı. Bununla belə, insan, onun azadlıq və bərabərlik istəyi ilk dəfə kəşf edilmədiyi kimi, ilk dəfə də yaradılmırdı. Sadəcə olaraq modern insanın siyasi varlığına dair anlayışlarda dəyişiklik edildi. Belə ki, böyük kütlələr tərəfindən öyrənmə və mənimsənməsi müşkül olan dini doktrina dünyəvilik (*secularism*) vasitəsilə dövlətdən ayrıldı. Yəni orta əsrlər dövründə dövlət quruluşu və qanunlarını ayaqda saxlayan dini doktrina və xanədanlığın (monarxiyanın) (Benedict Anderon. "İmagined Communities", London: Verso, 1991, s. 9–37) siyasi və hüquqi əhəmiyyəti, özünəməxsusluğu ortadan qalxmış oldu. Beləliklə, Platon, Aristotel və orta əsr mütəfəkkirlərinin mətnlərində də mövcud olan bərabərlik və azadlıq ideyası da yeni dil (milli dil) vasitəsilə daha geniş kütlələr üçün əlçatan olmağa başladı. Şübhəsiz, azadlıq və bərabərliyin Afina senatından, xanədan sarayı və dini məbədlərdən geniş kütlələrə sirayət etməsində iqtisadi quruluşdakı çevrilmənin də rolu olmuşdur. Afinada senatı modern parlamentlər və millətlər adına siyasətlə məşğul olan peşəkar siyasətçilər əvəz etməyə başladı. Bu dəyişikliyin qavranması üçün iqtisadi münasibətlərdəki inqilabi dəyişikliyi nəzərə almaq lazımdır. Mexaniki dünyanın bir parçası olaraq ortaya çıxan kapitalist iqtisadi quruluş yeni bir dünya yaratmağa başladı. Beləliklə, millətlər, milli kimliklər modern dünyada kollektiv kimliyin ana elementi olaraq qəbul edilməyə başladı. Bərabərlik və azadlıq üçün millətin üzvü olmaq əsas şərtlərdən birinə çevrildi, bu isə vətəndaşlıq olmadan mümkün olmayacaqdı. Vətəndaşlıq müəyyən bir torpaqda yaşayan insanlarla bərabər və azad olmaq imkanını yaradırdı. Millətə üzvlük üçün hansı şərtlər zəruri idi? Bir millətin üzvü qəbul edilmək üçün bir insanın soy-kökünü, yoxsa sosial aidiyyətini (bərabər yaşamaq) əsas tutmaq lazım idi? Bu səpkidə müxtəlif yanaşma və nəzəriyyələr ortaya çıxdı və tədricən millətşünaslıq sahəsi formalaşdı.

Uğurlu bir milli kimlik inşa edərkən etnik və irqi birliyi millət üçün əsas şərt olaraq müəyyən etmək olmaz. Bu xüsusda ötən əsrdəki faşizm hərəkatından bəhs etmək kifayətdir. Daha açıq desək, insanların coğrafi olaraq bu qədər rahat yer dəyişdirdiyi bir dövrdə irqi aidiyyəti rəhbər tutaraq milli kimlik inşası müşkül məsələdir. Axı millət şüurlu bir fəaliyyətin nəticəsidir. Soy mənsubiyyəti ilə şüurluluq arasında birbaşa əlaqə qurmaq mümkün deyildir. Əlbəttə, bir soyun davamçısı olaraq dünyaya gəlmək, bioloji mənsubiyyət əhəmiyyətli məsələdir. Lakin milli kimliyin inşasında bioloji mənsubiyyət mərkəzdə tutulduğu təqdirdə kollektiv birgəyaşayışın nə dərəcədə mümkün olacağı sual altındadır. Millətin formalaşması və tamamlanması üçün aidiyyət, bağlılıq və öhdəliyin təmin edilməsi şərtdir. Bunun üçün isə etnosdan daha çox millət anlayışına üstünlük vermək lazımdır.

Millət irqi bağlılıqdan daha çox şüurlu birliyi ifadə edir. Çünki millət və milli kimlik anlayışı bəzən Con Lokkda olduğu kimi fərdlərin seçimi, Jan Jak Russoda olduğu kimi ümumi iradə tərəfindən fərdin müəyyən edilməsi metoduyla olsa belə, cəmiyyət üzvlərinin toplam varlığından ibarət sosioloji bir gerçəklikdir. Yəni modern dünya insan topluluqlarını millət biçimində yeni bir siyasi kateqo-

riyaya daxil etmişdir. Beləliklə, modern dünyada insanın siyasi və hüquqi dəyəri bir millətə üzvlüklə mümkün olmuşdur.

Belə olan halda millət sadəcə fərdlərdən yox, fərdlərin mənsub olduğu soy və din mənsubiyyətinin də toplamından ibarət olur. İnsan (fərd) doğularkən qazandığı soyu, irqi, etnik mənsubiyyəti üzərinə şüurlu bir varlıq inşa edə bilməz. Daha doğrusu, insan soy mənsubiyyəti ilə dünya barədə şüurlu qavrayışa nail ola bilməz. Əfqanıstan kimi müsəlman ölkəsinin də qarşılaşdığı dilemma millət ola bilməməkdir. Belə ki, Əfqanıstanda qurulan süni siyasi quruluş Əfqanıstanın etnik, dini cəhətdən kiçik, bölünmüş qrupların birləşib millət olmasına mane olur.

İnsanın *"dünyadakı varlığını onun şüuru müəyyən edir"*. Müasir dünyada insanların siyasi birlik forması millət şəklində təşəkkül etmiş və modern dövlət tədricən milliləşdirilmiş, millətlər iqtidarların legitimləşdirici ünsürü, milli vətənin qoruyucusu rolunu icra etməyə başlamışdır. Hüquq da bu çərçivədə təşəkkül etmişdir. Burada modern iqtisadiyyatın tələblərini də diqqətə almaq zəruridir. Belə ki, modern kapitalist-iqtisadi münasibətlər insanların millət kimi varlığını zəruri etmişdir. Afrika, Cənubi Amerika və s. bölgələrin yerlilərinin bu gün də ənənəvi yaşayış tərzini davam etdirmələrinin ana səbəblərindən biri modern iqtisadi münasibətlərdən, istehsaldan kənar qalmaları, yaxud saxlanılmalarıdır.

Bununla belə, millətlərin, milli dövlətlərin formalaşması, inşası hər ölkənin subyektiv kontekstinə görə cərəyan edirdi. Bəzi ölkələrdə dövlət və millət eyni zamanda ortaya çıxdığı halda, bəzilərində millət dövlətsiz formalaşmışdır. Digər bir halda isə nə millət, nə də dövlət mövcud olmuşdur. Belə olan halda xalq həm millət, həm də dövlət formalaşdırmanın mübarizəsini verməli oldu.

II

Modernizmin siyasi və iqtisadi institutlaşması və ya bölgüsü əhalinin yerdəyişməsinə, yaxud eyni soydan, ailədən, mədəniyyətdən olan insanların ayrı düşməsinə, bəzilərinin isə köç etməyə məcbur qalmasına səbəb oldu. Dağılmaqda olan Osmanlının Balkanlara yerləşdirdiyi türklərin buradan sürgün edilməsi imperiyada sabitliyin pozulması ilə nəticələndi.

Modernizmi Kürəkçay və Türkmənçayda təcrübə edən Azərbaycan xalqı isə on illərlə davam edəcək yerdəyişməyə, köçə, deportasiyaya məruz qalacaqdı. Halbuki modern vətən üçün sərhədləri bəlli bir ölkədə siyasi hakimiyyət, suverenlik şərt idi. Beləliklə, uzun müddət torpaq üzərində sağlam, qüvvətli aidiyyət və bağlılıq formalaşa bilmədi. İrəvandan, Təbrizdən, Tiflisdən mərkəz olan Bakıya ardı-arası kəsilməyən köçlər IX əsrin sonlarından XX əsrin sonlarına qədər davam etmişdir. Lakin vahid dövlətin olmaması Azərbaycanı burada yaşayan xalq üçün vətənə çevirə bilmədiyi kimi, institutlaşmış aidiyyət, bağlılıq, kimlik də inşa edə bilmədi. Sovet Azərbaycanında "homo-sovietiucus"a xidmət üçün formalaşdırılan Bakılı kimliyi belə uzun müddət rus dilində danışa bilənlərin, təhsil alanların mənimsəməyə "haqqı" olduğu bir düşüncənin təsirində qalmışdır. Halbuki bakılılıq modern şəhər mədəniyyəti demək idi və bu anlayış institutlaşmış şəkildə ancaq II Qarabağ

müharibəsi ilə əldə edilən hərbi-siyasi zəfərdən sonra mümkün olacaqdı.

Türkmənçay müqaviləsi ilə Azərbaycan xalqının uzun müddət davam edəcək qeyri-müəyyən taleyi də başlamış oldu. Belə ki, xalq müxtəlif rejimlərin idarəsi altında yaşadığı üçün uzun müddət institutlaşmış kimliyə sahib ola bilmədi. Burada əsas əskiklik, heç şübhəsiz, dövlətsizlik idi. Cümhuriyyətin yaranması ilə bu problem öz həllini tapmaqda idi ki, sovetləşmə başladı! Modern Azərbaycanda ən uzunömürlü dövlət Sovet Azərbaycanı oldu və kimlik inşası sovet dövründə institutlaşdı. Bu nə deməkdir? Tarixin Sovet Azərbaycanının tələb və ehtiyacı çərçivəsində yazılması deməkdir. Yəni sovet dövründə Azərbaycan milli kimliyini daşıyan, ölkədə yaşayan və çoxluq təşkil edən türk və müsəlman xalqın yerli dəyərləri tarixşünaslıqda özünə yer tapa bilmədi. Daha doğrusu, türklük və müsəlmanlıq bir dəyər olaraq qəbul edilmədi. Nəticədə milli kimlik siyasətinin əsas instrumenti olan tarixşünaslıq qədimlik axtarışının qurbanı oldu və özünü Manna və s. "dərinliklərində" tapdı. Müstəqilliyin bərpası da kifayət etmədi. Belə ki,

> *Milli kimlik modern insanın bərabər yaşamaq ehtiyacına əsasən, dövlət əliylə tapılan cavabdır. Belə olan halda mövcudolma baxımından uzlaşma əldə edilmiş, normativ və şərtləri qəbul etmiş fərdlər toplusunu millət olaraq qəbul etmək olar...*



torpaqların işğalı Kürəkçay və Türkmənçayın kölgəsində formalaşmış və kimlik üzərində asılılıq qurmuş izlərindən xilas olmağa, bu çərçivədə siyasi strategiya ortaya qoymağa imkan vermədi. Lakin 44 günlük müharibənin sonunda əldə edilən ZƏFƏR on illərdir dəyişən rejimlərlə institutlaşa bilməyən kimliyin institutlaşması üçün imkan yaratmış oldu. Daha doğrusu, bu zəfər sayəsində Azərbaycan xalqı modern siyasi tarixi müddətində ilk dəfə başqalarının da tanıdığı, qəbul etdiyi sabit, bütöv vətənə sahib oldu. Xülasə, Azərbaycan beynəlxalq səviyyədə tanınan sərhədlərində artıq təşəkküllü suveren bir dövlətdir.

III

Bütün modern millətlər sosial, iqtisadi, siyasi, hərbi imkanlarına uyğun olaraq özləri üçün bir ideya mənimsədilər. Misal üçün, XIX əsr boyunca Osmanlı, İslam düşüncəsi ilə imperiyanı xilas etməyə çalışan ziyalılar, dövlət adamları son təhlildə imperiyadan geriyə qalan və əsas vətən (Türkiyə) olaraq görülən Anadolunu xilas etmək üçün türkçülük ideyasını mənimsədilər. Ancaq çar Rusiyasının zülmündən Osmanlıya sığınmış türk aydınlar türkçülük fikrinin bir ölkə ilə məhdudlaşmasına razı olmadılar. Çünki onların əsas vətəni müstəmləkə altında qalmışdı. O səbəblə Atatürk və Rusiyadan Türkiyəyə hicrət etmiş Əli bəy Hüseynzadə, Yusif Akçura, Sədri Məqsudi kimi aydınlar anlaşa bilmədilər. Beləliklə, türkçülük ilkin olaraq bütün türkləri ehtiva edən bir fikir olaraq ortaya çıxdı. Lakin cümhuriyyəti quran Atatürk və tərəfdarları türklük ideyasını yeni dövlətin imkanlarını nəzərə alaraq Anadolu ilə məhdudlaşdırdılar. Bu səbəbdən türklüklə bağlı tarixi tədqiqatlar və məlumatların qeydə alınması "şaquli qazıntı" ilə məhdudlaşdı.

Yeri gəlmişkən, Türk Dünyası ortaqlığı inşa prosesində türklük və türkçülük fərqli dəyərləndirilməlidir. Türklük türkdilli və ya soylu xalqların ortaq istifadə edəcəyi, yararlanacağı bir yataq, mənbədir. Halbuki türkçülük, əsasən, siyasi mahiyyətini Türkiyədə almışdır. Bu mənada Azərbaycanda dövlət və milli kimlik inşası azərbaycançılıq zəminində inşa edilmişdir. Axı milli kimliyin özünəməxsus olduğunu müzakirə etmişdik. Azərbaycanda isə vəziyyət bir qədər fərqlidir. Belə ki, tamamlanmadan tarixə qovuşan cümhuriyyətdən sonra başlayan sovet mərhələsi Azərbaycanda milli kimliyə kök axtarışının, daha doğrusu, tarixşünaslığın institutlaşdığı mərhələdir. Azərbaycanlı kimliyinin "homo-sovieticus"a xidmət etməsi üçün Babək, Atropat, Manna, Midiyaya (sıralama şərtidir) uzanan tarixi mənbələr ortaya çıxdı. Burada əsas məsələ Babək, Atropat, Manna, Midiyadan daha çox, Azərbaycan coğrafiyasına məxsus bu keçmişin hansı siyasi qurumun sifarişinə xidmət etdiyidir. Axı tarix, adətən, bu və ya digər şəkildə siyasi və sosial sifarişlə yazılır.

IV

Aidiyyət sosial birliyin inşası üçün əsas şərtlərdən hesab edilir. Aidiyyətin hansı formada müəyyən edilməsi sosial birliyin gələcəyi üçün həlledici olacaqdır. Coğrafi əsaslı bir aidiyyətlə sosial varlığın, kimliyin inşası müşkül məsələ olacaqdır. Bu səbəblə kültür əsaslı bir aidiyyət inşası Azərbaycanın gələcəyi üçün daha əlverişlidir. Kültür əsaslı ai-

diyyət hüquqi və siyasi əsaslı vətəndaşlığı, millətçiliyin kəskinliklərini, hətta dini də ehtiva edir (Milay Köktürk. "Millet ve milliyetçilik", İstanbul: Ötüken, 2016, s. 92). Daha doğrusu, azərbaycanlı milli kimliyi coğrafiyada yaşayan xalq(lar)ın kültürlərini də diqqətə alaraq yenidən nəzərdən keçirilməlidir. Bu baxımdan Azərbaycan müstəqillik illərində kimliklə bağlı yeni bir siyasət ortaya qoymuşdur. Multikulturalizm gənc Azərbaycanın beynəlxalq imicinin formalaşması üçün olduqca ciddi və əhəmiyyətli bir siyasətdir. Lakin daxildə güclü aidiyyət, bağlılıq və öhdəliyin formalaşması üçün çoxluğun dominantlığını nəzərdən qaçırmayan bir kültür inşası zəruridir. Yəni multikultural siyasət çoxluğun dominantlığını nəzərə almalı, azlıqların çoxluqla mübarizəyə girməsinə imkan verməməlidir. Bununla bərabər, azlıqlar da bərabərhüquqlu qurucular olaraq hesab edilməlidir (Tariq Modood. "A multicultural nationalism?", Brown Journal of World Affairs, volume XXV, issue II, 2019, p. 233–246). Müstəqillik illərində kimlik inşasından bərabər yaşamağa töhfə verməsi gözlənilir və görünür, bu şərtlər nəzərə alınırdı. Kültür torpaqdan daha çox, torpaq üzərində yaşayan xalqdan yola çıxaraq inşa edilməlidir. Azərbaycan artıq başda Dağlıq Qarabağ statusu daxil olmaqla başqaları və digər siyasi quruluşlar tərəfindən yaradılmış bütün qurumlar, anlayışlarla hesablaşa biləcək mərhələyə gəlmişdir. Yəni Azərbaycan müstəmləkənin yaratdığı süni statuslarla hesablaşmağı gözə almışdır. Belə olan halda kimliklə bağlı sovet izlərini də dekonstruksiya etmək və yeni kimlik konstruksiyası üzərində düşünmək lazımdır. Digər tərəfdən unutmamaq lazımdır ki, Azərbaycan siyasi, iqtisadi və hərbi cəhətdən qura, qoruya və davam etdirə biləcəyi kimliyə üstünlük verəcəkdir. Yəni azərbaycançılıq mərkəzdə olan hakimiyyətini qoruyacaqdır. Belə ki, proses daxilində hər kəsə (dini və etnik qruplara) platformalarda təmsil olunmaq və müzakirələrdə iştirak imkanı yaradılır. II Qarabağ hərbi-siyasi zəfərindən sonra I Xarıbülbül Festivalında bütün dini və etnik qrupların öz milli elementləri ilə Azərbaycan şəmsiyyəsi altında təmsil olunması çağdaş Azərbaycan kimliyinin bir nəticəsi kimi ifadə edilə bilər. Beləliklə, Azərbaycanda xalqı millət kimi bir arada tutması gözlənilən dövlət bu sahədə multikultural siyasət də daxil olmaqla əhəmiyyətli bir nailiyyət əldə etmiş oldu.

V

Bununla bərabər, dünya yeni bir çevrilmənin astanasındadır. Belə olan halda modern milli kimliklər, milli dövlətlər də çağırışlarla qarşılaşmaqdadır. Belə ki, qlobal miqyasda yayılan köç milli suverenliyi, sərhəd təhlükəsizliyini təhdid etməkdədir. Dövlətlər də tədricən çarəni (müvəqqəti) sərhədlərdə iqtisadi baxımdan davam etdirilməsi müşkül olan divar çəkməkdə görürlər. Belə olan halda millətlərin, milli kimliklərin, milli dövlətlərin aqibəti necə olacaq?

Modern dünyada istehsal prosesinin mexanikləşməsi çərçivəsində inşa edilməsini artıq bilirik. Belə ki, sosial, siyasi və iqtisadi çevrilməni ilk həyata keçirən və institutlaşdıran ingilislər üçün dönüm nöqtəsi (*turning po-*

*int*) 1583-cü ildə yerli bir rahibin (*local priest*) tekstil istehsalının mexanikləşdirilməsinə dair təklifi qəbul edilir (Acemoglu, D., Robinson, J.A. "Why Nations Fail", Profile Books, 2013, p. 182). Beləliklə, dəyişən iqtisadi münasibətlər insan mərkəzli sosial qurumların (*social structure*) formalaşmasına imkan yaratdı. Mexaniki prinsiplər çərçivəsində inşa edilən dünya əl əməyinə əsaslanan orta əsr sosial quruluşunu transformasiyaya vadar etmişdir. Mexaniki istehsal prinsiplərinə söykənən modern cəmiyyətlərdə insanın rolu da tədricən dəyişmişdir. Beləliklə, yeni dövlət forması olan milli dövlətlər millətlərin varlığı ilə yüksəlmişdir. Halbuki modern mexaniki dünya yeni elektromaqnit (*electromagnet*) dünyanın tələblərini qarşılaya bilmir və yeni dövr insan anlayışında və sosial quruluşda dəyişikliyi, transformasiyanı şərtləndirir (Milay Köktürk. "Millet ve milliyetçilik", İstanbul: Ötüken, 2016, s. 230–231).

Lakin artıq XXI əsr mexaniki anlayışın yerini elektromaqnit (*electromagnet*) anlayışa verdiyi bir kontekstdə inşa edilir. Belə olan halda yeni sosial quruluşda insanın (millətlərin) rolunda da dəyişiklik olacaqdır. Bu proses əvvəlcə ötən əsrin 70–80-ci illərində postmodernizm və neoliberalizmlə başladı. Belə ki, fransız postmodern fəlsəfəçi Lyotard postmodernizmi açıqlayarkən zamanın rənginin dəyişdiyini, insanlığın bir tərketmə, rahatlama dövrü yaşadığını yazır (Jean-François Lyotard. "Postmodern nedir sorusuna cevap", (45–58) (tərc. Dumrul Sabuncuoğlu), içində Necmi Zeka, (red.). "Postmodernizim" 2-ci nəşr. İstanbul: Kıyı Yayınları, 1994, s. 45). Qloballaşma neoliberalizm, texnoloji inkişaf, iqlim dəyişikliyi və qlobal mahiyyət kəsb etməyə başlayan miqrasiya postmodernistlərin iddialarını qüvvətləndirdi. Belə ki, modern inqilabi dəyişikliklər, sənaye inqilabı dəmir yolu, buxarlı gəmi və teleqraf kimi texnoloji yeniliklərlə mümkün olmuşdur. Bu yeniliklər də modern dövlətin milli dövlətə çevrilməsində həlledici olmuşdur. Hazırda isə dəyişikliklər elektromaqnit çərçivəsində baş verir. Artıq Azərbaycan vətəndaşları texnologiyanın yaratdığı imkan sayəsində evlərindən onlayn mağazalar vasitəsilə istədikləri sifarişi verə bilirlər. Beləliklə, milli dövlətlər ötən əsrdəki qapalı hegemonluqlarını itirdilər. Lakin tədricən güclərini toplayan dövlətlər bu prosesdə Habermasın ötən əsrin sonunda yazdığı kimi millətləri fəda edirlər. Yəni artıq dövlət elə dövlətin özü olmağa başlayır. Klassik millət, milli kimlik anlayışı həllediciliyini itirməyə başlayır.

XXI əsrdə klassik milli kimlik institutları mövcud təhdidlərlə sorğulanmaqda və sarsılmaqdadır. Digər tərəfdən iqtisadi, texnoloji, hərbi çərçivədə regional siyasi qurumlar meydana gəlməkdədir. Bu çərçivədə II Qarabağ müharibəsindən sonra Azərbaycan və Türkiyənin öncüllüyündə institutlaşan Türk Dövlətləri Təşkilatı mövcud basqılara qarşı yeni bir müdafiə sistemi ola bilər. Beləliklə, Azərbaycan klassik milli kimlik və milli dövlət qurumunun məruz qaldığı çağırışlarla mübarizəni Türk Dünyası şəmsiyyəsi altında apara bilər. Bu çərçivədə prezidentin andiçmə mərasimində Azərbaycanın əsas bağlılığının (*affiliation*) Türk Dünyası olduğunu ifadə etməsinin bir səbəbini də burada axtarmaq lazımdır.